**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ARİF XƏLİL OĞLU İSMAYILOV**

# AZƏRBAYCAN İQTİSADİYYATININ REAL SEKTORUNUN İNKİŞAFINA İNVESTİSİYALARIN CƏLB OLUNMASINDA BANKLARIN ROLU

**5308.01 – Ümumi iqtisadiyyat**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2014**



Dissertasiya işi Bakı Dövlət Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Nazim Özbəy oğlu Hacıyev**

**Aparıcı təşkilat:** **AMEA-nın İqtisadiyyat İnstitutu**

Müdafiə 27 fevral 2014-cü il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 24 yanvar 2014-cü ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası SSRİ-nin dağılması ilə beynəlxalq iqtisadi münasibətlər sisteminə daxil oldu. Respublikanın müstəqillik qazanması və öz iqtisadi potensialından istifadə edə bilmək imkanını əldə etməsi müsbət bir hal idi. Belə ki, yetmiş illik bir müddət ərzində Azərbaycan Respublikasının imkanlarının genişliyinə baxmayaraq onun iqtisadiyyatı mərkəzi hakimiyyət tərəfindən istiqamətləndirilmişdi. 1969-1982-ci illər ərzində Azərbaycana Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi iqtisadiyyatın təşəkkülü dövrü isə istisnadır. Çünki məhz bu illər ərzində Azərbaycan iqtisadiyyatında müxtəlif sahələr üzrə sənaye müəssisələri yarandı, istehsal keyfiyyəti yüksəldi. Azərbaycan ixrac imkanlarına malik olan məhsulların istehsalına başladı. Aqrar sahədə uğurlar əldə edildi və ekstensiv təsərrüfat formalarının əvəzinə intensiv metodlara üstünlük verilməyə başlandı. Ümumiyyətlə, onu qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövrü ərzində Azərbaycan xammal respublikası xüsusiyyətlərini üzərindən ata bildi.

SSRİ-nin dağılması ərəfəsində isə Azərbaycan iqtisadiyyatında mənfi meyllər gücləndi. Qeyri-sağlam məsələlərin artması ölkə iqtisadiyyatını digər tərəfdən zəiflədirdi.

Nəhayət, Azərbaycan Respublikası müstəqillik qazandı. Təəssüf ki, ölkə cəlb edilmiş müharibə, dağılan infrastruktur və çökmüş maliyyə sistemi ilə dünya iqtisadi sisteminə daxil oldu. Ölkənin bank-maliyyə sistemi də acınacaqlı vəziyyətdə idi. Birinci növbədə ona görə ki, maliyyə sektoru real sektorla qarşılıqlı əlaqədə olduğu üçün inflyasiya və başqa maliyyə-pul siyasəti problemlərini həll etmək imkanlarından məhrum idi. Digər tərəfdən bank-maliyyə sektoru müasir liberal maliyyə dövriyyəsini həyata keçirəcək halda deyildi. Çünki bu sistem inzibati idarə formasiyasının xidmətinə yarayırdı. Amma yeni münasibətlərin tələblərinə cavab vermirdi.

Respublika müstəqilliyinin ilk illərində investisiya mühiti də acınacaqlı idi. Zəmanət amilinin olmadığı bir şəraitdə ölkə iqtisadiyyatına hər hansı təməlli investisiyaların yatırılmasından söhbət gedə bilməzdi. Azərbaycan-da möhkəm bir hakimiyyətin olmaması, Ermənistanın təcavüzünün davam etməsi xarici investisiyaların cəlbinin qarşısını alırdı. Çox cüzi miqdarda olan daxili investisiyalar isə yaxın xaricə üz tutmağa üstünlük verirdilər. İnvestisiyaların məhdudluğu real sektoru da inkişafdan saxlayırdı. Respublikaya sabitlik, investorlar üçün zəmanət və real sektorun ayağa qalxması üçün şəraitin olması lazım idi.

1994-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı üçün ən möhtəşəm layihə həyata keçirildi. "Əsrin müqaviləsi" imzalandı və



xarici investisiyalar ölkəyə daxil oldu. İnvestisiyaların bu şəkildə ölkəyə gəlməsi Azərbaycan iqtisadiyyatının neft sektoru ilə bərabər digər sahələrini də hərəkətləndirdi. Çünki ölkəyə böyük miqdarda pul kütləsi daxil oldu. Bu kütlə kapital və invetisiyalar şəklində təzahür etdi.

1996-cı il 10 iyun tarixdə "Azərbaycan Respublikasının Milli Bankı haqqında", 14 iyun tarixdə isə "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Qanunlar yeni redaksiyada qəbul edildi. Yeni bank qanunları respublikanın bank sisteminin qabaqcıl dünya bank təcrübəsinə yaxınlaşmasına, kredit təşkilatlarının yaradılmasına imkan yaratdı. Artıq Azərbaycanda bank sisteminin yenidən qurulması dövrün tələbinə çevrildi. Getdikcə özəl banklar yarandı.

Bankların yenidən qurulması prosesi iki cəhətlə-real sektor və ona investisiyaların cəlb olunması ilə də bağlı idi. Yalnız dövlət banklarının gücü ilə real sektorun investisiya ehtiyacını ödəmək mümkün deyildi. Ona görə proseslərə sonradan özəl banklar da qoşuldu.

Beləliklə, Azərbaycan iqtisadiyyatının real sektoruna investisiyaların cəlb olunmasında bankların rolu artmağa başladı. Lakin bütün uğurlarla yanaşı problemlər də özünü göstərməyə başladı. Bu da investisiyaların normativ tənzimlənməsi, banklarda aparılan islahatlarla və sektoral yönəlmə ilə bağlı olmuşdur.

Bütün bu proseslərin elmi-akademik dairələr tərəfindən öyrənilməsi isə olduqca aktual bir məsələdir. Çünki bankların fəaliyyəti nəticəsində real sektorun müxtəlif istiqamətləri üzrə investisiyaların hərəkət dinamikası yüksələ bilər. Habelə, banklar real sektorda kəşfiyyat aparmaqla iqtisadiyyatın hərəkətlənməsinə gətirib çıxara bilərlər. Bütün bunlar dissertasiyanın mövzusunun aktuallığını şərtləndirən amillərdəndir.

**Problemin öyrənilmə səviyyəsi** Azərbaycan Respublikasının iqtisadiyyatının real sektoruna investisiyaların cəlb olunmasında bankların rolu probleminin ayrı-ayrı aspektləri və parametrləri Azərbaycan alimlərindən A.Nadirov, Z.Ə.Səmədzadə, X.Abdullayev, V.Bayramov, E.Cəfərli, E.Əliyev, N.N.Əliyev, İ.R.Səlimzadə, N.Ə.Həsənov, F.K.Həşimov, M.Hümbətov, F.Hüseynov, F.Hüseynzadə, İ.Məmmədli, İ.Quliyev, İ.Mahmudov, S.Məmmədov, Z.Məmmədov, A.Məhərrəmov, V.Mirzəcanlı, B.Mirzəyev, İ.Orucov, E.Rüstəmov, T.Tağıyev, xarici müəlliflərdən M.Kurt, A.Söylemez, M.M.Boquslavski, S.M.Bratus, D.David, D.Driskoll, B.Lomakin, D.K.Labin, V.F.Maksimova, R.Payps, S.V.Polenina, E.Rode, İ.Z.Faxrutdinov və başqaları tərəfindən tədqiq edilmiş və öyrənilmişdir. Onların tədqiqatları iqtisad elmi üçün mühüm əhəmiyyət kəsb edən nəticələrin əldə olunmasına gətirib çıxarmışdır. Lakin müasir dövrdə qloballaşma və dünya maliyyə iqtisadi böhranının zəifləmədiyi bir şəraitdə respublika iqtisadiyyatında real sektorun inkişafına investisiyaların cəlb olunmasında bankların kompleks, sistemli, paradiqma formasında tədqiq

edilmədiyi müşahidə olunmuşdur. Ona görə də problemin sistemli halda, kompleks şəkildə həllinin araşdırılması zərurətə çevrilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan iqtisadiyyatının real sektorunun inkişafına investisiyaların cəlb olunmasında bankların rolunu müəyyən etməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- bank sisteminin yaranması tarixinin və inkişaf mərhələlərinin, eləcə də onun parametrlərinin və fərqləndirici xüsusiyyətlərinin müəyyən edilməsi;
- investisiyaların iqtisadi, substansional mexanizmi və normativ-hüquqi əsaslarının müəyyənləşdirilməsi;
- investisiyaların müasir iqtisadi proseslərin ümumi təhlili fonunda araşdırılması;
- Azərbaycan iqtisadiyyatının müasir sisteminin formalaşması meyllərinin aşkar edilməsi;
- Azərbaycan iqtisadiyyatında islahatlar və onların real iqtisadi duruma təsirinin qiymətləndirilməsi;
- Azərbaycan iqtisadiyyatında səmərəli layihələrin tətbiqi və şəffaflıq kontekstində araşdırılması;
- Azərbaycan bank sektoru və onun spesifik cəhətlərinin müəyyən edilməsi;
- real sektora investisiyaların cəlb olunmasında bank fəaliyyətinin təsirinin qiymətləndirilməsi;
- real sektor və bank sistemi münasibətlərinin perspektivlərində investisiyanın rolunun müəyyən edilməsi.

**Tədqiqatın obyekti.** Tədqiqat obyekti kimi Azərbaycan Respublikasının bank sistemi, iqtisadiyyatın real sektoru və real sektordakı investisiya qoyuluşları seçilmişdir.

**Tədqiqatın predmeti** bank sisteminin yaranması və inkişaf mərhələləri, Azərbaycan iqtisadiyyatında real sektorun inkişafı ilə bağlı aparılan islahatlar, investisiya qoyuluşlarının inkişaf infrastrukturu, investisiya prosesləri və layihələri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri əsasını yerli və xarici ölkələrin iqtisadçı alimlərinin əsərləri, Azərbaycan Respublikasının bu sahədə qüvvədə olan qanunları, Dövlət Proqramları, Əsasnamələr, digər normativ-hüquqi aktlar təşkil edir. Bank sistemi, real sektor, investisiyalar, inteqrasiya prosesləri, infrastruktur layihələri, islahatlar və s. əks etdirən müddəalar tədqiqatın metodoloji əsasını təşkil edir.

Tədqiqat prosesində iqtisadi-statistik, monoqrafik, məqsədli-proqram sistemli yanaşma, təhlil və sintez, ümumiləşdirmə, induksiya, deduksiya və s. metodlar və üsullar tətbiq edilmişdir.



**Tədqiqatın informasiya bazası.** İşdə Azərbaycan Respublikası İqtisadi İnkişaf və Maliyyə Nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Mərkəzi Bankın, Azərbaycan Respublikası Dövlət Neft Fondunun, Azərbaycan İnvestisiya Şirkətinin, Sahibkarlığa Kömək Milli Fondunun, kommersiya qurumlarının statistik normativ-arayış və texnoloji sənədlərindən, internet resurslarından istifadə olunmuşdur.

**İşin elmi yeniliyi.** Alınmış nəticələrdə elmi yeniliklər aşağıdakılardır:

- beynəlxalq investisiya fəaliyyətində iqtisadi parametrlər sistemi müəyyən edilmişdir;
- investisiya layihələrinin səmərəlilik göstəriciləri dəqiqləşdirilərək bu sahədə real təkliflər verilmişdir;
- daimi kredit xəttinin və kredit riskinin fərqləndirici cəhətləri və üstünlükləri müəyyən edilmiş, bununla bağlı fəaliyyət metodları göstərilmişdir;
- kredit xətti qaydasında kreditləşmə, overdraft, kontokorrent kreditləşməsinin oxşar və fərqləndirici xüsusiyyətləri müəyyən edilmişdir;
- kredit xətlərinin funksiyalaşdırılması mexanizminin tətbiq edilməsi yolları əsaslandırılmışdır;
- məqsədli kreditlərin təsnifat müddətləri müəyyən edilmiş və onlardan optimal istifadə metodları təklif edilmişdir;
- bank sektorunun aktivlərini idarə edəcək kontrtsikl xarakterli makroprudensial alətlər arsenalı müəyyənləşdirilmişdir;
- kontrtsiklik makroiqtisadi siyasətin konturları müəyyən edilmişdir;
- bank sisteminin genezisi və təkamül mərhələləri tədqiq edilmiş və müasir fəaliyyətlə paralellər göstərilmişdir;
- investisiyaların iqtisadi və substansional mexanizmi araşdırılmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işində irəli sürülən nəzəri-metodik müddəalar və təcrübi tövsiyyələr ali məktəblərdə "Bank işi" fənninin tədrisində, Azərbaycan Respublikası bank sistemində, xüsusi ilə kommersiya banklarının işinin təkmilləşdirilməsində, real sektora investisiyaların cəlb edilməsində, bank sektorunda, bütövlükdə respublika iqtisadiyyatında aparılan islahatlarda istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi.** Tədqiqatın nəticələri Bakı Dövlət Universitetində, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda, respublikanın müxtəlif kommersiya banklarında keçirilən kontraktlarda, treninqlərdə və müxtəlif materiallarda dərc edilmişdir. Dissertasiya işi ilə əlaqədar olaraq 6 məqalə və 1 tezis çap olunmuşdur.

Dissertasiya işinin əsas nəticələri Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (8 may 2013-cü il tarixli arayış) və "NBC Bank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti tərəfindən tətbiq üçün qəbul edilmişdir (8 may 2013-cü il tarixli 1030 saylı arayış).

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya işi giriş, üç fəsil,

nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 174 səhifədən ibarətdir. Burada mətndaxili 11 cədvəl verilmişdir. İşin axırında 138 adda istifadə olunmuş ədəbiyyat göstərilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiyanın I Fəsli** “**Bank sisteminin ümumi xarakteristikası və investisiyalarla qarşılıqlı əlaqəsi**” adlanır. Bu fəslin birinci paraqrafında **“Bank sisteminin genezisi, təkamülü, parametrləri və fərqləndirici xüsusiyyətləri”** öyrənilir. Burada müəllif qeyd edir ki, dünya iqtisadi sisteminin formalaşması prosesi uzun bir tarixi yol keçmişdir. Bu müddət ərzində ictimai-iqtisadi formasiyalar biri-birini əvəz etmiş, iqtisadiyyatın müəyyən sahələri müvafiq olaraq prioritet xassələr qazanmışlar. Ancaq bütün iqtisadi formasiyalarda iqtisadi fəaliyyətin əsas stimulu maddi rifah halının yüksəldilməsi olmuşdur. Bununla belə maddi rifah halının yüksəldilməsi üçün lazım olan zəruri amillər əhəmiyyətinə görə müxtəlif zaman kəsiklərində fərqlənmişlər. Əgər ilkin feodalizm dövründə əmtəənin daxili təminatına və istehsalına önəm verilirdisə, kapitalist münasibətlərinin yaranması prosesində ticarətin və mübadilənin, eləcə də kapitalın rolu artdı. Bu isə öz növbəsində bank sisteminin əhəmiyyətinin artmasına və maliyyə dövriyyəsinin güclənməsinə gətirib çıxardı. Lakin demək olmaz ki, bir sahə olaraq bank sistemi yalnız son feodalizm və ilkin kapitalizm dövründə yaranmışdı. Çünki tarixi faktlar bank münasibətlərinin ilkin təzahürlərinin qədim formalarının mövcudluğundan da xəbər verməkdədir. Dünya bank tarixi böyük bir yol keçmişdir və bir çox ölkələrin oxşar və fərqli xüsusiyyətlərə malik bank sistemləri yaranmışdır. Dissertasiyada ABŞ, Fransa, İngiltərə, İsveçrə və s. ölkələrin bank tarixinə nəzər salınmış, müasir dünyanın reallıqları olan BVF, BYİB, BİA və digər beynəlxalq bankların fəaliyyətinə də toxunulmuşdur.

Bir çox dünya ölkələrinin bank tarixindən maraqlı faktlar gətirildikdən sonra birbaşa olaraq Azərbaycan bank tarixinə nəzər salınır. XIX əsrin ortalarınadək, dünyanın digər dövlətlərində olduğu kimi Azərbaycan ərazisində də sözün müasir anlamında dövlətin mərkəzi bank tənzimləməsi orqanı yox idi. Yalnız Azərbaycanın kapitalizmə qədəm qoyması ilə əlaqədar bank-maliyyə sferasının tənzimlənməsinin ilkin mexanizmləri formalaşmağa başladı. XIX əsrin sonunda Azərbaycan Qafqazın digər regionları ilə müqayisədə kapitalizm sisteminə xas olan ən inkişaf etmiş 200-ə yaxın kredit idarəsini birləşdirən kredit-bank sisteminə malik idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra 1919-cu il martın 7-də Azərbaycan Respublikası hökumətinin qərarı ilə Azərbaycan Dövlət Bankı təşkil edildi. Həmin il sentyabrın 16-da Azərbaycan Respublikasının parlamenti Maliyyə Nazirliyinin kredit şöbəsi tərəfindən hazırlanmış Azərbaycan Dövlət Bankının Nizamnaməsini qəbul etdi. 30 sentyabr 1919-cu ildə isə Azərbaycan Dövlət



Bankının təntənəli açılışı oldu və həmin gündən etibarən bank fəaliyyətə başladı. 9 noyabr 1919-cu ildə Dövlət Bankının Gəncə bölməsi açılmışdır. Sonralar digər regionlarda da Dövlət Bankının bölmələri təsis edildi. 28 aprel 1920-ci ildə bolşevik Rusiyasının Azərbaycanı istila etməsi nəticəsində dövlətin müstəqilliyi formal olaraq saxlanılsa da (Azərbaycan Sovet Sosialist Respublikası adı ilə), ölkənin mövcud pul-kredit sistemi məhv edildi. Maliyyə Komissarlığının 31 may 1920-ci il tarixli əmri ilə Azərbaycan Dövlət Bankı Azərbaycan Xalq Bankı adlandırıldı. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 9 iyun tarixli qərarı ilə bütün banklar və digər kredit təşkilatları milliləşdirilərək Xalq Bankının tərkibinə qatıldı. Beləliklə, bank işi dövlətin müstəsna inhisarına keçdi. 1923-cü ildə SSRİ Dövlət Bankının yaradılması ilə əlaqədar onun Bakı bölməsi yaradıldı və Azərbaycanda dövlət inhisarında olan bank sistemi də mərkəzdən idarə olunmağa başlandı. 1991-ci il 18 oktyabr tarixində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqil Azərbaycan Respublikasının bank sisteminin, o cümlədən Milli Bankın yaradılması üçün də hüquqi baza yaradıldı. Belə ki, “Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında” Azərbaycan Respublikasının 1991-ci il 25 may tarixli Konstitusiya Qanununun “Bank sistemi və pul tədavülü” adlanan 14-cü maddəsi bütövlükdə məhz bu məsələləri əhatə etdi. 1996-cı il 10 iyun tarixdə “Azərbaycan Respublikasının Milli Bankı haqqında”, 14 iyun tarixdə isə “Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında” Qanunlar yeni redaksiyada qəbul edildi. “Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” 18 mart 2009–cu il tarixli Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar olaraq “Azərbaycan Respublikası Milli Bankı” “Azərbaycan Respublikasının Mərkəzi Bankı” adlandırılmışdır. Bununla əlaqədar olaraq “Azərbaycan Respublikasının Milli Bankı haqqında” Qanuna və digər qanunvericilik aktlarına müvafiq əlavə və dəyişikliklər edilmişdir.

Beləliklə, bankların iqtisadi və maliyyə münasibətləri sistemində bəzi nəticələrə gəlmək olar. Banklar xüsusi bir qurumdur və iqtisadiyyatın inkişafında özünəməxsus yeri var. Bankların yaranması və inkişafı dünya cəmiyyətinin və dünya mədəniyyətinin inkişafı ilə bərabər getmişdir. Cəmiyyətin inkişafı tarixində belə bir fikir mövcuddur ki, bankların inkişaf səviyyəsi ilə cəmiyyətin sosial-iqtisadi inkişafı düz mütənasibdir. Hansı ölkədə bankların yüksək səviyyəsi müşahidə olunursa, orada sürətli iqtisadi inkişaf, yüksək dünyəvi mədəniyyət var. Məhz bankların tarixində də bu qanunauyğunluq özünü biruzə verir.

Eyni fəslin ikinci paraqrafı **“İnvestisiyaların iqtisadi, substansional mexanizmi və normativ-hüquqi əsasları”** adlanır. İnvestisiya əməliyyatlarının hüquqi izahına keçməmişdən əvvəl investisiya anlayışının özünə açıqlıq gətirilməsi lazımdır. “İnvestisiya” anlayışı latın mənşəli “inves-

tire"sözündən olub, mənası "geyindirmək" deməkdir. İnvestisiyalar öz mahiyyətinə görə həm pul, həm də real kapitala qoyulmuş vəsaitlərdir. Bu, pul vəsaitləri, kreditlər, qiymətli kağızlar, daşınar və daşınmaz əmlaka, intellektual mülkiyyətə və digər dəyərli sahələrə qoyulan vəsaitlər şəklində həyata keçirilə bilər. Real kapitala qoyulan investisiyalar (onları çox zaman kapital əmələ gətirən və ya qeyri-maliyyə aktivlərinə qoyulan investisiyalar adlandırırlar) əsas kapitalın təkrar istehsalına və bərpasına səbəb olurlar. Adətən, investisiyalar haqqında danışdıqda, məhz bu növ investisiyalar nəzərdə tutulur. İnvestisiyaların bu şəkildə müəyyən olunması iqtisadi səciyyə daşıyır. Pul kapitalına qoyulan investisiyalara gəldikdə isə, (bu, maliyyə vəsaitlərinin kredit və qiymətli kağızlar şəklində qoyuluşudur) onların bir hissəsi dərhal real kapitala çevriləcək, ikinci hissəsi bir qədər sonra real kapitala çevriləcək, üçüncü hissə isə ümumiyyətlə, real kapitala çevrilməyəcəkdir, bu əsasən hər hansı bir kompaniya tərəfindən buraxılan və ya alınan, sonra isə iflasa uğrayan qiymətli kağızlardır. Başqa sözlə, pul kapitalına qoyulan investisiyalar, ölkənin gələcək investisiyalaşma üçün istifadə edə biləcəyi vəsaitlərdir. İnvestisiyaların praktik olaraq həyata keçirilməsi investisiya fəaliyyəti, bunu həyata keçirən şəxsləri isə investorlar adlandırırlar. İnvestisiya əməliyyatları bütün ölkələrin və cəmiyyətlərin həyatına təsir edən dinamik bir prosesdir. Onların intensiv inkişaf səviyyəsi müasir iqtisadiyyatların həyat qabiliyyətliliyini və davamlılığını müəyyən edir. İnvestisiya əməliyyatları iqtisadi prosesləri sürətləndirəcək qədər intensiv həyata keçirilsə, müsbət meyllər milli və beynəlxalq iqtisadiyyatlarda daha qabarıq hiss edilir. Onu da qeyd etmək lazımdır ki, investisiyaların hərəkəti digər iqtisadi fəaliyyət sahələrindəki əməliyyatlarla sıx bağlıdır. Buradan belə nəticəyə gəlmək olar ki, digər iqtisadi fəaliyyət sahələri investisiyaların hərəkət məkanıdır.

**I Fəslin son paraqrafı "Müasir iqtisadi proseslərin ümumi təhlilində investisiyaların yeri"** adlanır. İnvestisiyaların hərəkəti iqtisadi proseslərin tərkib hissəsidir. Bu o deməkdir ki, investisiyalar mücərrəd bir məkanda reallaşmırlar. İnvestisiyalar istehsal, maliyyə, kommersiya və informasiyanın, habelə xidmətlərin bir satış predmeti olduğu real iqtisadi müstəvidə qarşılarına qoyulmuş məqsədi həyata keçirir. İnvestorlar da ictimai həyatda maddi qazanc və ya gəlir əldə etmək məqsədi ilə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərdir. İnvestorların müasir iqtisadi münasibətlər sistemində fəaliyyəti bir qədər də intensivləşmişdir. Eyni zamanda investorlar üçün uzun bir tarixi inkişaf prosesində öz məqsədlərinə çatmaqda münasib zəminlər çoxalmışdır.

1970-ci illərdə dünya iqtisadiyyatının inkişaf sürətinin zəifləməsi müşahidə edildi. 1960-cı illərdə sənayeləşmə yolundakı ölkələr beynəlxalq maliyyə təşkilatları tərəfindən dəstəklənirdi. 1980-ci illərdən sonra bu qurumlar ölkələrin sənayeləşmə fəaliyyətlərinə dəstəklərini azaltdılar. Şərqi



və Cənubi Asiya ölkələrindən başqa digər dövlətlərdə inkişaf meylləri nisbətən zəiflədi. 1970-ci illərdən indiyə qədər dünyada məcmu sərmayələrin nəticəyə nisbəti dəyişməmiş görünür. 1970-ci ildə Çin Xalq Respublikası istisna edilməklə dünya ölkələrinə qoyulan sərmayələrin cəmi 527 milyard dollar və istehsal edilən mal, habelə xidmətlərin cəmi 2.5 trilyon dollar olarkən, 1987-ci ildə eyni nəticələr sırası ilə 2.7 trilyon dollar və 13.4 trilyon dollar təşkil etmişdir. Hər iki tarixdə də sərmayə nisbəti 21 faizdir. Dünya iqtisadiyyatında qloballaşmanın sürətləndiyi 1980-ci illərdə ABŞ, Yaponiya və Almaniyanın mövqeləri gücləndi. Sərmayəçilik prizmasından yanaşdıqda, bu ölkələr arasında müəyyən fərq olduğu dərhal nəzərə çarpır. Həmin ölkələrin dünya iqtisadiyyatında və sərmayə dövriyyəsində fərqli cəhətlərini görmək üçün bir qədər ətraflı yanaşma ilə məsələləri nəzərdən keçirmək lazımdır.

Son iyirmi ildən bəri dünya iqtisadiyyatında hakim olan qloballaşma meylləri ölkələrin iqtisadi, siyasi, sosial və mədəni bütövləşməsinə doğru hərəkət etməsi ilə nəticələnmişdir ki, bu da özünü daha çox iqtisadi sahədə göstərir. Ticarətin, kapital bazarının liberallaşdırılması və özəlləşdirmə kimi mexanizmlərlə təmin edilməyə çalışılan qlobal iqtisadi inteqrasiya bir sıra iqtisadi prosesləri də gücləndirmişdir ki, bunlardan biri də xarici investisiya axınlarıdır. Birbaşa və portfel investisiyalar şəklində ortaya çıxan xarici investisiya axınlarından birincisi iqtisadi inkişafda oynadığı rolu baxımından hər bir dövlətin investisiya siyasətində prioritet xarakter almışdır.

Müasir dünyanın iqtisadi inkişafının reallıqlarından biri də ultra, yəni həddindən artıq liberallığın özünü doğrultmamasıdır. Dünyanı bürüyən maliyyə böhranı bu deyilənləri sübut etdi. 2008-ci il dünya iqtisadiyyatında davamlı yüksək artımın dayanması ilə tarixə düşdü. Dünya iqtisadiyyatının taleyini həll edən ölkələrdən (ABŞ, Yaponiya, Çin, Böyük Britaniya, Hindistan, Almaniya, Fransa, İtaliya, Rusiya) heç biri qlobal böhranın təsirindən yaxa qurtara bilmədi.

**Dissertasiyanın II Fəsli "Azərbaycan dünya iqtisadi sisteminə inteqrasiya olunması şəraitində" adlanır. Burada birinci paraqrafın adı "Azərbaycan iqtisadiyyatının müasir sisteminin formalaşması meylləri"dir.** Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra yeni tələblərə müvafiq olaraq iqtisadiyyatında müasir bazar sisteminə uyğunlaşma dövrü başlandı. İqtisadi sistemin və institutların, habelə istehsal və xidmət sahələrinin yenidən qurulması müxtəlif mərhələlərdə həyata keçdi. İlkin mərhələdə Dağlıq Qarabağla bağlı münaqişənin davam etməsi, əlaqələrin dağılması və infrastrukturun çökməsi ilə bağlı olaraq iqtisadi proses çətinliklər və fəsadlarla müşahidə olunurdu. Bütün bu sadalananlar ölkənin iqtisadi göstəricilərinə öz mənfi təsirini göstərməkdə idi. 1990-1994-cü illər ərzində Azərbaycan Respublikasının bir çox iqtisadi göstəricilərində geriləmə müşahidə edilmişdi. Heydər Əliyev iqtisadi siyasətinin

reallaşmağa başlaması ilə neqativ dinamika müsbət irəliləyişlərlə əvəz olunmağa başladı. Bir sıra sahələrdə iqtisadi dirçəliş sürətlə, bəzilərində isə tədricən gedirdi. Birincilərə SSRİ-nin dağılmasından sonra nisbətən mühafizə edilə bilmiş iqtisadiyyat sahələri daxil idi. Kifayət qədər çox itkilərlə yenidənqurma dövrünə daxil olan sahələrdə isə tədricilik xassəsi güclü idi. 1994-cü ildə Azərbaycan Respublikası xarici ticarət dövriyyəsi 1993-cü ildəkinə nisbətən 4 faiz çox idi. Bu artıq inkişafın ilkin məqamlarından sayıla bilərdi.1993-cü ildə yenidən respublika rəhbərliyinə qayıdan H.Əliyev balanslaşdırma siyasətinə keçərək ölkənin beynəlxalq iqtisadi münasibətlər sisteminə daha fəal inteqrasiya etməsinə təkan verdi. Artıq Azərbaycan 1994-cü ildə xarici ticarət dövriyyəsini 1415 mln. dollara çatdırdı. Azərbaycan xarici iqtisadi fəaliyyətinin yeni mərhələsinə qədəm qoyurdu. Bu mərhələ ölkəni beynəlxalq iqtisadi münasibətlər sisteminin fəal faktoruna çevirməli idi. Müstəqilliyin on ilində (1991-2000-ci illər) Azərbaycan Respublikasının inkişafına 24,6 trilyon köhnə manatdan çox pul yatırılmışdı. Bunun da 93 faizi 1996-2000-ci illərin payına düşürdü. Azərbaycan Respublikasının iqtisadi siyasətinin öncül istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Müəllifi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü ilin sentyabrında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə ölkəsinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır. Müstəqil Azərbaycan Respublikasının yeni tarixinə qızıl hərflərlə həkk olunmuş 20 sentyabr 1994-cü il bugünkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən işlənib hazırlanmış yeni neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin ikinci hakimiyyət dövrü olan 1993-2003-cü illər ərzində 3 mindən artıq yeni sənaye müəssisəsi açılmış və 2004-cü ilin yanvarın 1-i vəziyyətinə onların sayı 5536-ya çatmışdır. Əsası Ümummilli Liderimiz tərəfindən qoyulmuş və indi də həyata keçirilməkdə olan "açıq qapı" siyasətinin nəticəsidir ki, xarici və müştərək müəssisələrin sayı bu illərdə 3 dəfə artmışdır. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirməkdədir. Onun hakimiyyətdə olduğu illərdə Azərbaycan iqtisadiyyatı dünyanın ən intensiv inkişaf edən iqtisadiyyatına çevrilmişdir. Regionların



iqtisadi inkişafını stimullaşdıran dövlət proqramları qəbul edilmişdir. Ən vacib iqtisadi elementlərdən biri makroiqtisadi sabitliyin qorunmasıdır.

2012-ci ildə Azərbaycan iqtisadiyyatındakı inkişaf bütün sahələrdə müşahidə edilmişdir. Bu ildə ÜDM-in həcmi real bazar qiymətləri ilə 43,5 milyard manat olmaqla 2,2 faiz, qeyri-neft sektorunun payı isə 24,9 milyard manat olmaqla 8,6 faiz artmışdır. 2012-ci il əhalinin gəlirlərində 7,4 faiz, orta aylıq əmək haqqında 5,7 faiz həcmində real artımın olması və bu zaman inflyasiyanın təxminən 1,3 faiz olması iqtisadi inkişafın pozitivliyindən xəbər verməkdədir. Əhalinin gəlirləri 34,5 milyard manata qədər artmış və iqtisadi siyasət onlarda özünün müsbət xassəsi ilə təzahür etmişdir. ÜDM-də gözlənilən 2,2 faizlik artımın faktiki olaraq neft hasilatının azalması fonunda baş verməsi qeyri-neft sektorundakı canlanmanı göstərməkdədir. 2012-ci ildə qeyri-neft sektorunda 10 faizə yaxın real artım əldə edilib. 2012-ci ilin on bir ayı ərzində qeyri-neft sektoru üzrə ÜDM-in həcmi 24,665 milyard manat olmaqla 2011-ci ilin eyni dövrü ilə müqayisədə 9,7 faiz artıb.

2013-cü ildə iqtisadiyyatımız inkişafını davam etdirmişdir. Ümumi daxili məhsul təxminən 6 faiz artmışdır. Nəzərə alsaq ki, bu gün dünyanın əksər ölkələrində ümumi daxili məhsul yarım faiz, 1 faiz, 1,5 faiz artır, təxminən 6 faiz səviyyəsində artan ümumi daxili məhsul böyük nəticədir. Əhalinin pul gəlirləri 8 faiz artmışdır. İnflyasiya isə cəmi 2,4 faizdir. Əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfədən çox üstələyir. İl ərzində ölkə iqtisadiyyatına 28 milyard dollar investisiya qoyulmuşdur. 110 min yeni iş yeri açılmışdır ki, onlardan 80 mini daimi iş yeridir. İşsizliyin səviyyəsi 5 faizə düşmüşdür. Yoxsulluğun səviyyəsi də aşağı düşmüşdür, 5,3 faizdir.

2013-cü ildə qeyri-neft sektorunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır və statistik göstəricilər də bunu təsdiqləyir. 2013-cü il üzrə makroiqtisadi göstəricilərin dinamikası ölkə iqtisadiyyatının şaxələnməsinə yönəlmiş iqtisadi kursun uğurla icra olunmasını nümayiş etdirir. ötən ildə 57 milyard manat ümumi daxili məhsul istehsal olunmaqla real artım 5,8 faiz olmuş, qeyri-neft sektoru üzrə isə 9,8 faiz artım əldə edilmiş, adambaşına düşən ümumi daxili məhsulun həcmi isə 4,4 faiz artaraq 6 min 132 manata (təxminən 8 min ABŞ dollarına) çatmışdır. Əhalinin rifah halının göstəricilərində də müsbət dinamika müşahidə olunur. 2012-ci illə müqayisədə işləyənlərin orta aylıq əmək haqqı 6,2 faiz artaraq 423 manat, pullu xidmətlərin həcmi isə 8,2 faiz artaraq 6,5 milyard manat olmuşdur.

2013-cü ildə dövlət büdcəsinin xərcləri 19 milyard 112 milyon manat və yaxud 96,3 faiz yerinə yetirilmişdir. Bu, 2012-ci illə müqayisədə 1 milyard 697 milyon manat və ya 9,7 faiz çox deməkdir. Ötən il dövlət büdcəsi xərclərinin 32,6 faizi və ya 6 milyard 239 milyon manatı sosial təyinatlı xərclərin (elm, təhsil, səhiyyə, mədəniyyət, idman xərcləri) maliyyələşdirilməsinə yönəldilmişdir ki, bu da 2012-ci illə müqayisədə 598

milyon manat və ya 10,6 faiz çoxdur.

Beləliklə, iqtisadiyyatın bütün sahələrində aparılan islahatların qısa zaman kəsiyi ərzində verdiyi çoxsaylı müsbət nəticələr bir daha Azərbaycan Respublikasının rəhbərliyinin əzmlə həyata keçirdiyi iqtisadi siyasətin düzgünlüyünü sübut edir.

**Bu fəslin ikinci paraqrafı "Azərbaycan iqtisadiyyatında aparılan islahatlar və onların real iqtisadi duruma təsiri" adlanır.** Azərbaycan Respublikasında iqtisadi islahatlara qiymətlərin və xarici iqtisadi fəaliyyətin liberallaşdırılmasından başlanılmışdır. Liberallaşdırma prosesi 1995-ci ilə kimi ölkədə qiymətlərin kəskin surətdə qalxmasına səbəb olmuşdur. 1995-ci ildən etibarən ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən birini də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması təşkil etmişdir. Azərbaycanın iqtisadi islahatlar və inkişaf modelinin həyat qabiliyyətli və səmərəli olmasının ən yaxşı sübutu son illərdə ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində əldə olunmuş nailiyyətlərdir. Belə ki, bu model üzrə həyata keçirilən siyasət çox tez bir zamanda ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinin baş verməsinə səbəb olmuşdur: inflyasiya cilovlanmış (1996-cı ildən başlayaraq 2003-cü ilə qədər Azərbaycanda inflyasiyanın səviyyəsi 2-3%-dən yuxarı qalxmamış), Milli Bank (indi Mərkəzi Bank) tərəfindən büdcə kəsirinin maliyyələşdirilməsi praktikasına son qoyulmuş, büdcə kəsiri ÜDM-in 1-2%-i səviyyəsinə endirilmişdir. Bu dəyişikliklər nəticəsində artıq 1996-cı ildə dərin iqtisadi böhran keçirən ölkədə makroiqtisadi sabitliyə nail olunmuş, növbəti-1997-ci ildən başlayaraq isə dinamik iqtisadi inkişafı təmin etmək mümkün olmuşdur. Belə ki, 1996-cı ildə ÜDM-in artım sürəti 1,3%, 1997-ci ildə 5,8%, 1998-2004-cü illərdə isə orta hesabla 10% təşkil etmişdir. 2005-2006-cı illərdə isə real iqtisadi artım tempi 26,4 və 34,5% təşkil etmişdir. Həmçinin son illər Azərbaycanda yoxsulluğun azaldılması, sosial-iqtisadi rifahın yüksəldilməsi, regional və sahəvi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilmiş və keçirilən iqtisadi islahatların, tədbirlərin (bu islahat və tədbirlərin hansı siyasi sənədlərlə həyata keçirilməsi yuxarıda qeyd edilmişdir) davamlı nəticəsi olaraq ölkədə əhalinin həyat səviyyəsi ilbəil yüksəlir, iqtisadiyyatın regional və sahəvi kəsikdə inkişafı reallaşır. 2009-cu il ərzində də iqtisadiyyatın dinamik inkişaf sürəti, ölkənin böyük miqdarda valyuta ehtiyatlarının mövcudluğu beynəlxalq maliyyə qurumlarının Azərbaycanla daha sıx əməkdaşlığına şərait yaradır. Bunun bariz nümunəsi kimi ölkəmizə Dünya Bankı tərəfindən yenidən böyük həcmdə kredit ayırmaq niyyətini göstərmək olar. Dünya Bankının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Qreqori Yedjeyçak da bildirib ki, təmsil olunduğu qurum bu il respublikamızda yeni layihələrin maliyyələşdirilməsinə dair sazişləri təsdiq edəcəkdir. Həmin layihələr infrastruktur, nəqliyyat, yol təsərrüfatı, ekologiya, kənd təsərrüfatı, təhsil, səhiyyə, idarəetmə



ilə bağlı sahələri əhatə edəcəkdir. 2009-2010-cu illərdə Dünya Bankının maliyyələşdirmək istədiyi layihələrin böyük bir hissəsi şəhər nəqliyyatında hərəkətin təhlükəsizliyinin təmin olunması, yol təsərrüfatının modernləşdirilməsi və infrastrukturun yenidən qurulması ilə bağlı olmuşdur. Bank respublikamızın 24 rayonunu əhatə edən layihə çərçivəsində kənd təsərrüfatı mülkiyyətçilərinə uzunmüddətli kreditlərin verilməsini məqsədəuyğun sayır. Beləliklə, ötən dövr ərzində aparılan islahatlar nəticəsində sənayedə, energetikada, nəqliyyat və rabitədə, kənd təsərrüfatında, ticarətdə makrostruktur dəyişiklikləri edilmiş, durğunluq və gerilik faktları tədricən aradan qaldırılmış, milli valyutanın möhkəmliyi təmin olunmuşdur.

**II Fəslin üçüncü paraqrafı "Azərbaycan iqtisadiyyatında səmərəli layihələrin reallaşmasında şəffaflıq əsas kimi" adlanır.** Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi üçün qarşıda dayanan başlıca məsələlərdən biri də səmərəli layihələrin tətbiqi və şəffaflıq məsələləridir. İqtisadiyyatın inkişafı onun meyllərindən çox asılıdır. Belə ki, əgər iqtisadiyyat davamlı bir inkişafı nəzərdə tutan strategiya üzərində bərqərar olubsa, bu pozitiv bir yanaşmadan xəbər verməkdədir. Bəzi hallarda bir sıra iqtisadi tədbirlər və layihələrin icrası ilkin gəlirlərə gətirib çıxarsa da, sonralar bu olduqca böyük fəsadlarla da müşayət edilə bilir. Başqa sözlə desək, hər bir iqtisadi proses və hadisə yalnız bu günə əsasən deyil, perspektivlərə müvafiq olaraq da qurulmalıdır. Azərbaycan iqtisadiyyatında son dövrlər bir sıra səmərəli layihələr həyata keçirilir. Bu layihələrin maliyyələşdirmə prosesinin əsasında müxtəlif mülkiyyət formalarına malik olan banklar, kommersiya təşkilatları və fondlar dayanırlar. Maliyyə qoyuluşları həyata keçirən qurumları da layihəyə cəlb edən başlıca amil onların səmərəlilik dərəcəsidir. Çünki səmərəlilik faizinin yüksəlməsi ilə bərabər gəlirlər də yüksəlir. Bu isə investoru hərəkətə gətirən maddi maraq prinsipinin təməlində dayanır. İnvestorlar tərəfindən layihələr təqdim edilərkən onların nə dərəcədə gəlir qabiliyyətli olmasına önəm verirlər. Həmçinin müvafiq dövlət qurumları da layihələrin həyata keçirilməsinə investisiya yatırarkən səmərə amilini birinci növbədə nəzərə alırlar. Respublika iqtisadiyyatında həyata keçirilən layihələr arasında infrastrukturla bağlı olan layihələr üstünlük təşkil edir. İnfrastruktur layihələrinin zəruri xarakter daşımasının obyektiv səbəbləri vardır. İnfrastrukturun inkişaf dərəcəsi əslində ölkə iqtisadiyyatının gücünü göstərən başlıca amillər sırasına daxildir. İnfrastruktur istənilən iqtisadi layihənin və prosesin uğurlu olub-olmamasını müəyyən etməyə imkan verir. Azərbaycan iqtisadiyyatında isə infrastruktur islahatlarının keçirilməsi olduqca vacib amillərdən sayılmaqdadır. Dövlət rəhbərliyi bu sahədə səmərəli təkliflərin həyata keçirilməsi istiqamətində mühüm işlər görməkdədir. Ancaq bununla birgə bəzi iqtisadi sahələrdə infrastruktur layihələri o qədər də uğurla həyata keçirilməmişdir. Bunun da bir sıra obyektiv və subyektiv səbəbləri olmuşdur. Obyektiv səbəblər ondan ibarətdir ki, dövlət investisiya layihələri is-

tisna edilməklə digər layihələr üçün investorların maraqlandırılması lazımdır. Azərbaycan iqtisadiyyatında həyata keçirilmiş və həyata keçirilməsi davam edən layihələr sırasına mexanizm, institut və təşkilati qurumların yenidən qurulması da daxildir. Əslində beynəlxalq maliyyə qurumları Azərbaycanda təşkilati dəyişikliklərin həyata keçirilməsində maraqlı görsənirlər. Çünki bəzi qurumların fəaliyyəti ölkə iqtisadiyyatının bu və ya digər şəkildə inkişafına mənfi təsir göstərə bilir. Belə qurumların bəzilərinin işini innovasiya etmək mümkündür. Elə qurumlar da var ki, onlar ya tamam ləğv edilməli, ya da ki, hər hansı bir digər qurumla birləşməlidirlər. Bütün bunlarla yanaşı iqtisadi fəaliyyətin maliyyə məsələlərinin şəffaflığı da müasir iqtisadi prosesdə nəzərə alınan əsas məsələlərdəndir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il 28 iyul 2292 nömrəli Sərəncamı ilə Səffaflıgın artırılması və korrupsiyaya qarsı mübarizə üzrə Milli Strategiyanı təsdiq etmişdir. Bu onun göstəricisidir ki, Azərbaycan Respublikasının iqtisadi siyasətində şəffaflıq məsələləri böyük önəm daşıyır. Bura həm dövlət orqanlarının fəaliyyətinin şəffaflaşdırılması, həm də özəl sektorda işləyən subyektlərin açıqlıq dərəcəsinin yüksəldilməsi daxildir. Şəffaflıq mühitinin olmaması investisiya qoyuluşu məsələsində maneəyə çevrilə bilər. İstənilən hüquqi və ya fiziki şəxs iştirakçısı olduğu prosesin bütün tərəflərinin onun üçün açıq olmasında maraqlıdır. Çünki bu zaman iştirakçı fəaliyyətdə mövcudluğunu davam etdirib-etdirməməsinə dair öz strategiyasını müəyyən edir. Ona görə istənilən halda şəffaflıq iqtisadi inkişafın baş rolunu oynayır. Əlbəttə şəffaflıq dedikdə fəaliyyətə aid bütün informasiyaların hamıya tam açıq olması da demək deyildir. Çünki istehsal sirləri, tərəflərin razılaşdıqları məsələlər yalnız müvafiq dövlət orqanları və ya onların özləri tərəfindən nəzərdən keçirilə bilər. İnvestisiya fəaliyyəti zamanı şəffaflığın təmin edilməsi korrupsiya hallarının aradan qaldırılmasına da kömək edə bilər. Azərbaycan Respublikası hökuməti korrupsiyaya qarşı mübarizə xəttini götürmüşdür. Bu hüquq pozma növünə qarşı mübarizə aparmaq üçün müvafiq dövlət strukturu da formalaşdırılmışdır. Lakin bütün işlərin yalnız dövlətə həvalə edilməsi vətəndaş cəmiyyətinə xas olmayan bir xüsusiyyətdir. Bu işdə ictimaiyyətin, ilk növbədə də işgüzar dairələrin dövlət siyasətinə dəstək verməsi zəruridir. Buna görə iqtisadi fəaliyyətləri zamanı subyektlərin maliyyə şəffaflığına riayət etməsi onların da marağındadır. Təəssüflər olsun ki, çox zaman təsərrüfat subyektlərinin bəziləri mülkiyyət formalarından asılı olmayaraq şəffaflıq prosedurlarına əməl etmirlər. Belə hallar Azərbaycan Respublikasının mövcud qanunvericiliyi və Prezident İlham Əliyev tərəfindən bəyan edilən iqtisadi siyasətlə ziddiyyət təşkil edir. Qeyd etmək lazımdır ki, son zamanlar Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə bütün sferalarda korrupsiya və rüşvətxorluğa qarşı mübarizə gücləndirilmişdir.

**Dissertasiyanın III Fəsli "Azərbaycan bank sistemi və real sek-**



**torun inkişaf meylləri"dir. Burada birinci paraqraf "Azərbaycanın bank sektoru və onun spesifik cəhətləri" adlanır.** Hazırda respublikada inkişaf etmiş, bazar prinsiplərinə əsaslanan iki pilləli bank sistemi (birinci pillədə Azərbaycan Respublikası Milli Bankı, ikinci pillədə kommersiya bankları və digər bank olmayan kredit təşkilatları) fəaliyyət göstərir. İslahatların ilkin mərhələsində dövlət banklarının restrukturizasiyası və sağlamlaşdırılması tədbirləri həyata keçirilmiş, özəl bank sisteminin institusional formalaşması təmin edilmişdir. Bu mərhələdə kapitalla bağlı aşağı tələblər, sistemə daxil olmaq üçün son dərəcədə liberal şərtlər müəyyən olundu və bank fəaliyyətini tənzimləmək üçün yumşaq tənzimləmə alətləri tətbiq edildi. Bu proseslərin nəticəsində bank sistemi institusional olaraq genişlənməyə və özəl bankların sayı sürətlə artmağa başladı. Bank islahatlarının növbəti mərhələsində, 2000-ci ildən başlayaraq həyata keçirilən özəl bankların intensiv sağlamlaşdırılması tədbirləri bank sisteminin davamlılığının möhkəmlənməsinə və maliyyə vasitəçilik funksiyasının yaxşılaşmasına mühüm şərait yaratmışdır. Özəl bankların minimal kapitala tələbinin Milli Bank tərəfindən ardıcıl artırılması və konsolidasiya prosesinin təşviqi özəl bank sisteminin kapital bazasını möhkəmləndirmiş, bank sisteminin iriləşməsini təmin etmişdir. 2002-ci ildən bank sisteminin restrukturizasiyasının mühüm mərhələsi həyata keçirilməyə başlandı. Uğurlu neft strategiyasının məntiqi nəticəsi kimi iri neft gəlirlərinin ölkəyə axınını və bu əsasda bankların maliyyə resurslarının strateji məqsədlərə effektiv ötürülməsinə hazır olmalarını nəzərə alaraq yeni, 2002-2005-ci illərə inkişaf strategiyası hazırlandı. Strategiyanın əsas məqsədini neft gəlirlərinin qeyri-neft sektoruna səmərəli və təhlükəsiz transformasiyası, əhalinin və regionların bank xidmətlərinə çıxış imkanlarının artırılması və bu əsasda yoxsulluğun azaldılması üçün bank sisteminin maliyyə vasitəçilik funksiyasının inkişaf etdirilməsi, bank sisteminin davamlılığının və etibarlılığının möhkəmləndirilməsi, bank xidmətləri bazarında azad və sağlam rəqabət mühitinin təmin edilməsi təşkil edir. Ölkənin malik olduğu böyük iqtisadi qüdrətin və maliyyə imkanlarının bazasında diversifikasiya olunmuş iqtisadiyyatın qurulması və resursların qeyri-neft sektorunun kapitalizasiyasına yönəldilməsində maliyyə-bank sektoru müstəsna rol oynayır. Müəyyən edilmiş strateji hədəflərə nail olunması üçün bank fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, bank sisteminin etibarlılığının və sağlamlığının artırılması, bank xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi, bank sistemində şəffaflığın səviyyəsinin artırılması və bazar intizamının möhkəmləndirilməsi, səmərəli bank nəzarətinin təşkili kimi konkret vəzifələr qarşıya qoyulmuş və icra edilmişdir.

**III Fəslin ikinci paraqrafı "Real sektora investisiyaların cəlb olunmasında bank fəaliyyətinin təsiri"dir.** Son illərin təcrübəsi onu göstərir ki, istər dövlət və istərsə də, kommersiya banklarının iştirakı ilə Azərbaycan

iqtisadiyyatının real sektorunda bir çox layihələr həyata keçirilmişdir. Layihələrin həyata keçirilməsi onu göstərir ki, Azərbaycanda bankların fəaliyyəti üçün münbit şərait vardır. Bununla belə qüsur və nöqsanlara, habelə bəzi çatışmazlıqlara rast gəlinir. Lakin çatışmazlıqlar həlli mümkün və normativ, texniki xassəyə malikdirlər. İqtisadçıların da üzərinə düşən vəzifə, təklif və tövsiyyələr təqdim etməkdir.

İlk öncə onu qeyd etmək lazımdır ki, 2013-cü ildə bankların daxili maliyyə dayanıqlığı potensialı artmış, problemli aktivlərlə iş sahəsində əhəmiyyətli irəliləyişə nail olunmuşdur. Bank sisteminə etimadın artırılması üçün maliyyə xidmətləri istehlakçılarının maraqlarının müdafiəsi sistemi daha da gücləndirilmiş, elektron imzanın tətbiqi ilə əhali və sahibkarların şəxsi kreditlərilə bağlı məlumatlara çıxışı asanlaşdırılmışdır.

2013-cü ildə bank sektorunun maliyyə vasitəçiliyinin dərinləşməsi davam etmiş, sistemin resurs bazası genişlənmişdir. Bu ilin 11 ayında bank sisteminin aktivlərində 22%, kredit qoyuluşlarında isə 25% artım olmuşdur. Dövr ərzində regionlara yönəlmiş kreditlərin həcmi 31%, özəl sektora kreditlər isə 25% artmışdır. Bankların kredit portfelində uzunmüddətli kreditlərin xüsusi çəkisi 79%-ə yüksəlmişdir. İstehlak kreditlərinə yüksək tələbat müsahidə olunmuş, cari ilin 11 ayında istehlak kreditləri 37%-ə yaxın artmışdır.

Maliyyə sektorunun regional əhatəsinin genişlənməsi davam etmiş, 41 bank filialı və 12 bank şöbəsi açılmış, qeyri-bank kredit təşkilatlarının sayı 139-dan 146-a qalxmışdır. Hazırda fəaliyyət göstərən 691 bank filialı və 142 bank şöbəsinin yarısı regionlardadır. Azərbaycan İpoteka Fondunun (AİF) və bankların öz resursları hesabına maliyyələşən ipoteka kreditləri 750 mln. manata çatmışdır. 2013-cü il ərzində verilən ipoteka kreditlərinin həcmi 35%, o cümlədən güzəştli ailələrə kreditlər 33% artmışdır. Nəticədə ipoteka kreditləri hesabına mənzil əldə edən ailələrin sayı 20 mini ötmüşdür. İpoteka kreditlərinin maliyyələşdirilməsində dövlət büdcəsindən ayrılan vəsaitlərlə yanaşı bazardan cəlb edilən resurslar da mühüm rol oynamışdır.

AİF-in xətti ilə verilmiş ipoteka kreditlərinin 60%-indən çoxu maliyyə bazarından cəlb edilmiş uzunmüddətli borc vəsaitləri ilə maliyyələşdirilmişdir. AİF-in bazardan cəlb etdiyi resursların həcmi 300 mln. manata çatmışdır. İpoteka kreditləşməsi prosesinin sadələşdirilməsi, bankların bu prosesdə fəaliyyətinin effektivliyini artırmaq məqsədilə iki mühüm institusional inkişaf layihəsi həyata keçirilmişdir. İpoteka kreditləşdirilməsi prosedurlarının, kredit öhdəlikləri üzrə ödənişlərin, bu sahədə klirinq və hesablaşmaların avtomatlaşdırılması məqsədilə "Elektron ipoteka sistemi" və "Elektron ödəniş və klirinq sistemi" yaradılmışdır. 2012-ci ildə ölkə iqtisadiyyatına 20 251,10 milyon manat investisiya qoyulmuşdur. Növbəti ildə isə investisiya qoyuluşları bir qədər də artmış və 2013-cü ildə



iqtisadiyyata rekord səviyyədə sərmayə qoyulmuşdur.

**Cədvəl 1**

**İqtisadiyyata investisiya qoyuluşları**

| | 2010 | 2011 | 201 2 |
|---|---|---|---|
| Bütün mənbələr üzrə | | | |
| mln.manat | 14118,90 | 17 048,80 | 20 251,10 |
| mln.dollar | 17 591,40 | 21 588,90 | 25 777,80 |
| **Xarici investisiyalar:** | | | |
| mln.manat | 6 619.7 | 6 849,80 | 8 102,70 |
| mln.dollar | 8 247. 8 | 8 673,90 | 10 314,00 |
| **Daxili investisiyalar:** | | | |
| mln.manat | 7 499,20 | 10 199,0 | 12 148,4 |
| mln.dollar | 9 343,60 | 12 915,0 | 15 463,8 |

**Cədvəl 2**

**İqtisadiyyata kredit qoyuluşları. (ilin axırına, mln. manat)**

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| **İqtisadiyyata kredit qoyuluşları** | **7191,3** | **8 407.5** | **9 163,40** | **9 950,30** | **12 720,5** |
| onlardan: | | | | | |
| qısa müddətli | 2 295.9 | 2 360.0 | 2 567.1 | 3 051,20 | 3 885,20 |
| yekuna görə, faizlə | 32,1 | 28,1 | 28 | 30,7 | 30,5 |
| uzun müddətli | 4895,4 | 6 047.5 | 6 596.3 | 6 899,10 | 8 835,30 |
| yekuna görə, faizlə | 67,9 | 71,9 | 72 | 69,3 | 69,5 |

Dövlət əsaslı vəsait qoyuluşu da ən yüksək səviyyəyə çatmış, 7 milyard manat səviyyəsində vəsait yönəldilmişdir. Həmin vəsaitdən sosial-mədəni və məişət təyinatlı obyektlərin (elm, təhsil, səhiyyə, mədəniyyət, idman və s.) tikintisi və yenidən qurulması üçün 2 milyard 37 milyon manat, enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya və digər infrastrukturların tikintisi və yenidən qurulması üçün 3 milyard 743 milyon manat, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsi üçün 262 milyon manat, digər layihələrin maliyyələşdirilməsi üçün isə 873 milyon manat vəsait sərf edilmişdir. 2013-cü ildə sahibkarlığın inkişafına dövlət dəstəyi daha da gücləndirilmiş, iqtisadiyyatın müxtəlif sahələri üzrə 4468 sahibkara 275 milyon manat güzəştli kredit verilmişdir ki, bunun da 150 milyon manatını dövlət büdcəsindən ayrılmış vəsait təşkil edir.

2013-cü ildə Azərbaycanda Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 4468 sahibkara ümumilikdə 275 mln. manat kredit verilib. Bu layihələrin maliyyələşdirilməsi 12 mindən artıq yeni iş yerinin yaradılmasına imkan verəcək. Bununla yanaşı, kredit vəsaitlərinin 68,8%-i aqrar sahədə, 31,2%-i sənaye sahəsində layihələrin maliyyələşdirilməsinə yönəldilib. ötən il verilmiş kreditlərin 72,1%-i Azərbaycanın regionlarında, 27,9%-i Bakı qəsəbələrində layihələrin maliyyələşdirilməsinə yönəldilib.

Sahibkarlara kreditlərin verilməsi 44 bank və qeyri-bank kredit təşkilatı vasitəsilə həyata keçirilir. 2013-cü ildə fondun xətti ilə sahibkarlara 275 mln. manat məbləğində güzəştli kredit verilib.

**III Fəslin son paraqrafı "Real sektorun bank sisteminin inkişafı perspektivlərində rolu"dur.** Azərbaycan bank sektorunun real sektorla münasibətlərinin inkişafı üçün bankların öz strategiyalarında iqtisadiyyat sahələrinin nəzərə alınması zəruridir. Getdikcə qeyri-neft sektoru ölkə iqtisadiyyatında rolunu artırır. Bu baxımdan bankların qeyri-neft sektoruna investisiya təşviqindəki fəaliyyətinin artırması zəruridir. Banklar Azərbaycan dövlətinin ümumi investisiya siyasətinin mühüm tərkib hissəsi olub, milli iqtisadiyyatın yüksəlməsində, onun sabit inkişafında və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində özünəməxsus rol oynayır. Bu siyasətin həyata keçirilməsi üçün xüsusi investisiya proqramları işlənib hazırlanmalı və həmin proqramlarda milli iqtisadiyyatın xüsusiyyətləri, post keçid dövrünün şərtləri və beynəlxalq təcrübə hər tərəfli öyrənilib nəzərə alınmalıdır. Bu zaman ölkə iqtisadiyyatının inkişafı üçün strateji əhəmiyyət kəsb edən sahələrə xüsusi diqqət yetirilməlidir. Digər tərəfdən real sektora xarici kapitalın cəlb olunması da diqqət mərkəzindən kənarda qalmamalı və mühüm vəzifə kimi qarşıda durmalıdır.

Dünya maliyyə-iqtisadi böhranının nəticələrini nəzərə alaraq, dünya iqtisadiyyatına inteqrasiya olunması gələcəkdə də Azərbaycan iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olacaqdır. Belə bir şəraitdə bank sistemi iqtisadi artımı dəstəkləyərkən sistemin etibarlılığını saxlamalı və hədsiz risklərə yol verməməlidir. Başqa sözlə, respublikada bank siyasəti dinamika və sabitliyin optimal vəhdəti ilə müəyyən olunacaq və makroiqtisadi risklərin səviyyəsini daha dolğun əks etdirəcək.

Qlobal böhran bir çox ölkələrin makroiqtisadi siyasəti üçün ciddi sınaq oldu. Odur ki, artıq monetar siyasətin və makroprudensial nəzarətin mexanizmlərini yeni böhrandansonrakı şəraitə uyğunlaşdırılması üçün məqsədyönlü iş aparılır. Böhran monetar siyasətdə inflyasiya amilinin tətbiqinin kifayət etmədiyini göstərdi. Buna görə də kontrtsiklik makroiqtisadi siyasətə bir çox məqsədləri daxil etmək və hər bir hədəf üçün xüsusi tənzimləmə alətləri müəyyən etmək lazımdır. Məqsəd parametrlərinə ən azı aşağıdakı istiqamətlər daxil edilməlidir: inflyasiya, xarici investisiya tələbi, sistemin stabilliyi, maliyyə sektorunun inkişaf dərəcəsi üzrə hədəflər



və s. Hədəfləmə sisteminə həmçinin iqtisadiyyatda ümumi qiymət səviyyəsinin, o cümlədən aktivlərin qiymətlərinin də aşağı və sabit səviyyədə saxlanılmasını daxil etmək olar. Nəhayət, bank sisteminin və maliyyə bazarlarının stabilliyi məqsədləri kontrtsiklik tənzimləmə mexanizmlərinin tətbiqini nəzərdə tutur.

Bank sisteminin stabilliyinin qorunması məqsədilə yaxın perspektivdə aşağıdakı başlıca fəaliyyət istiqamətləri müəyyən edilmişdir: şəffaflığın artırılması, bankların kapital bazasının keyfiyyətinin yüksəldilməsi, risklərin qarşısının alınmasına və qəbul olunmuş risklər üzrə informasiyanın açıqlanmasına olan tələblərin ciddiləşdirilməsi, kapital ehtiyatlarına qarşı kontrtsiklik tələblərin təmin edilməsi, həmçinin likvidlik normativlərinə yenidən baxılması.

Bu tədbirlər bazar iqtisadiyyatında əsas maliyyə vasitəçiliyi kanalı və iqtisadi artımın uzunmüddətli sabit resurs mənbəyi kimi bank sisteminin stabilliyini yüksəltməyə imkan verəcək. Banklarda korporativ idarəetmənin keyfiyyətinin yüksəldilməsi tədbirləri və risklərin idarə edilməsi işinin təşkili sayəsində bankların məcmu kapitalına daxili nəzarətin səmərəliliyi xeyli yüksəlmişdir. Lakin yalnız əsas kapital kontrtsiklik xassələrə malikdir, odur ki, kapitalın yetərliliyini qiymətləndirən əlavə göstəricilər tətbiq etmək lazımdır.

**Dissertasiya işinin nəticə hissəsində əldə edilmiş nəticələrin nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir**.

**Tədqiqat işi ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1. "Azərbaycanın iqtisadi inkişaf modeli və investisiya siyasəti", Elmi Əsərlər, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu №4. Bakı-2010, s.113-116.

2. "Некоторые суждения о международных юридически-нормативных основах передвижения инвестиций", Scientific Magazine, University International Relations of Georgia № 1, Tbilisi - 2010, s.111-115.

3. "Real sektorda bankların investisiya fəaliyyətinin bəzi problemlərinə dair ", "Azərbaycan İqtisadiyyatında Keçid Dövrünün Başa Çatması: Təhlil və Nəticələr, Milli İnkişaf Modelinin Formalaşması Problemləri" Respublika Elmi-Praktiki konfransının materialları Bakı-2010, s.679-681.

4. "Банки Азербайджана: пройден первый этап кризиса", Вопросы экономических наук Издательство «Спутник+» № 2(47) 2011 г. с.42-43.

5. "Azərbaycanda investisiya siyasətinin formalaşması xüsusiyyətləri", Elmi Əsərlər, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu № 1. Bakı - 2011. s.211-215.

6. "İnvestisiyaların hərəkətinin beynəlxalq hüquqi-normativ əsasları haqqında bəzi mülahizələr", Elmi Əsərlər, Azərbaycan Milli Elmlər

Akademiyası İqtisadiyyat İnstitutu № 3 Bakı - 2010. s.98-101.

7. “Коммерческие банки и инвестиционная деятельность (на примере Республики Азербайджана)” Экономические и гуманитарные исследования регионов № 3 Россия Москва - 2012, s.17-180.



**Исмаилов Ариф Халил оглы**

**Резюме**

**Роль банков в привлечении инвестиций в развитие реального сектора экономики Азербайджана**

Диссертация посвящена изучению роли банков в привлечении инвестиций в развитие реального сектора экономики Азербайджана. В введении доказывается актуальность изучения проблемы. После этого говорится о научно-теоретической базе диссертации. Затем определяются цель и задачи исследования. Раскрывается методика диссертации и информируется о новизне работы.

Первая глава изучает общую характеристику банковской системы и ее взаимодействия с инвестициями. Здесь исследованы генезис банковской системы, ее эволюция и особенности, экономические и нормативно-правовая базы, механизмы инвестиций и современный процесс.

Вторая глава называется «Азербайджан в условиях интеграции в мировую экономическую систему». Здесь внимание уделено формированию современной системы экономики страны, тенденциям и реформам. В конце главе речь идет о выгодных проектах в контексте прозрачности.

Третья глава называется «Банковская система Азербайджана и направления развития реального сектора». В этой главе изучается становление банковской системы Азербайджана. Роль банков в привлечении инвестиций в реальный сектор входит в спектр проблем главы. Затем говорится о перспективах.

В заключении подводятся итоги и выдвигаются научные предложения, которые в последствие можно применить как оптимальные методы улучшения ситуации в этой области.

**Ismayilov Arif Khalil**

## Summary

**The role of banks in attracting investments in the real sector of economy of Azerbaijan**

The thesis is devoted to studying the role of banks in attracting investments in the real sector of economy of Azerbaijan. In the introduction we prove the relevance of studying the problem. After that refers to the scientific and theoretical basis of the dissertation. Then you define the purpose and objectives of the study. Thesis and method is disclosed is informed about what's new work.

The first chapter examines the general characteristics of the banking system and its interaction with the investment. It investigated the genesis of the banking system, its evolution, and especially economic, legal and regulatory framework, the mechanisms of investment and the current process.

The second chapter is entitled "Azerbaijan in the context of integration into the global economy." Here attention is paid to the formation of the modern system of the country's economy, trends and reforms. At the end of the chapter focuses on profitable projects in the context of transparency.

The third chapter is called "The banking system of Azerbaijan and the direction of the real sector." In this chapter we study the formation of the banking system of Azerbaijan. The role of banks in attracting investments into the real sector is in the range of problems of the chapter. Then they say about the prospects.

In conclusion, summarizes the research and put forward proposals, which in consequence can be applied as best practices for improving the situation in this area.





Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 15, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə çap olunmuşdur.
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

===

*На правах рукописи*


**Ариф Халил оглы Исмаилов**


# Роль банков в привлечении инвестиций в развитие реального сектора экономики Азербайджана

**5308.01– Общая экономика**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономике

**Гянджа – 2014**